**Günay Azər ƏHMƏDOVA**
Azərbaycan Dövlət İqtisad Universteti, doktorant
E-mail: gunayahmedova03@gmail.com
https://orcid.org/0009-0000-2507-7192/print

# AZƏRBAYCANDA AQROTURİZM FƏALİYYƏTİNİN FORMALAŞMASININ İQTİSADİ ƏSASLARI

**Xülasə**

Məqalənin əsas məqsədi işinin əsas məqsədi aqroturizmin inkişaf istiqamətlərinin və onun inkişaf problemlərinin müəyyən edilməsidir. Araşdırmalar göstərir ki, Azərbaycanda aqroturizm formalaşır və inkişaf edir. Faktlardan aydın olur ki, bir çox ölkələr məhdud resurslarına, təbiətinə, iqliminə baxmayaraq aqroturizmdən olduqca geniş istifadə edirlər. Bundanda olduqca yüksək gəlir əldə edirlər. Həmin ölkələr aqroturizmin inkişafı nəticəsində bununla sadəcə iqtisadi səmərə əldə etməyərək, eyni zamanda dünyada özlərinə qarşı müsbət imic və qiymət əldə edirlər. Azərbaycanın istər coğrafi mövqeyi, istər təbiəti, istər yüz illərə dayanan tarixi, istərsə də maddi-mənəvi resursları vardır. Bu səbəbdən aqroturizmin inkişafı üçün heç bir problem olmamalıdır. Yerli vətəndaşların bu istiqamətdə düzgün marifləndirmə tədbirləri həyata keçirilməli, regional olaraq hər bir iqtisadi rayonda aqrar turizm sahəsinin inkişaf etdirilməsi üçün mərkəzlər yaradılmalıdır. Eyni zamanda bölgələrdə əhalinin yerli kiçik aqroturizm biznesini qurmaq üçün bank sektorununda bu sahəyə xüsusi həvəsləndirici kredit şərtləri hazırlanmalıdır. Bu sayədə regionların özünümaliyyələşdirmə problemi aradan qalxar və regionların dövlət büdcəsindən asılılığı minimuma endirilə bilər.

***Açar sözlər:*** aqroturizmin inkişafı, dünyada aqroturizm təcrübəsi, iqtisadi inkişaf

**JEL:**F02
**UOT:**336
**DOI:** https://doi.org/ 10.54414/EKUC1346

## Giriş

Aqroturizm dedikdə, insanların kənd yerlərində istirahətini nəzərdə tutan turizm növü başa düşülür və kənd təsərrüfatının sənayedən daha çox inkişaf etdiyi ölkələrdə daha aktual olan turizm növüdür. Aqroturizm kəndlərin və kənd təsərrüfatının inkişafında, sosail-mədəni xidmət sahələrinin yaradılmasında, əhalinin məşğulluq vəgəlir səviyyəsinin yüksəldilməsində əhəmiyyətli dərəcədə rol oynayır.

Müasir dövrdə turizm sektorunun inkişafı istiqamətində çoxsaylı məqsədyönlü tədbirlərin həyata keçirilməsinin bir nəticəsi də bu sektorun davamlı olaraq inkişafına şərait yaratmışdır. Azərbaycan Respublikası Prezidentinin 2002- ci il də 27 avqust tarixli 1029 №-li Sərəncamına əsasən “Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı” -nın reallaşdırılması nəticəsində turizmin inkişafı məqsədilə münbit şərait yaradılmasına və respublikamızın beynəlxalq turizm bazarına inteqrasiyasınazəmin yaratmışdır. Aparılan siyasətin davamı olaraq iqtisadi, sosial və ekoloji cəhətdən tələblərə yüksək cavab verən müasir turizm istiqamətinin formalaşdırılması və ölkə iqtisadiyyatının vacib inkişaf dayaqlarından birinə çevrilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2010-cu il də 6 aprel tarixli 838 saylı Sərəncamına əsasən “Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı” təsdiq olunmuşdur. Respublikada turizm sektorunun daha da sürətlə inkişafı və turizm fəaliyyəti məqsədilə əlverişli şəraitin yaradılması zərurətini də nəzərə alaraq, turizm ehtiyatlarından da daha səmərəli istifadə edilməklə zəngin coğrafi landşafta malik olan ölkəmizin təbiət abidələrinin, həmçinin xalqımızın qədim olan mədəni-tarixi irsinin geniş şəkildə tanıdılmasının təmin edilməsi

üçün Azərbaycan Respublikası Prezidentinin 2011-ci ildə 15 fevral tarixli 1320 saylı Sərəncamına əsasən ölkədə 2011-ci il "Turizm ili" elan olunmuşdur. Azərbaycanda turizm infrastrukturunun həm inkişafı, həm də beynəlxalq standartlara uyğun turizm xidmətlərinin formalaşdırılması bu istiqamətdə qanunvericilik bazasının təkmilləşdirilməsini, bu sahənin potensialından istifadənin genişləndirilməsini, regionlar üzrə turizm fəaliyyətinin stimullaşdırılmasını, müəyyən istiqamətlər üzrə turizm marşrutlarının yaradılmasını, həmçinin rəqabətədavamlı qiymət təklifinin təmin edilməsi məsələlərini zəruri edir.

Təhlillərin nəticəsi onu göstərir ki, Azərbaycanda turizm sahəsi, bütövlükdə, artım dövründədir. 2010-2015-ci illərdə ölkəmizdə turizm müəssisələrinin sayında orta hesabla ildə 4,5 faiz, bu sahədə məşğulluq səviyyəsində isə ildə 6 faiz, turizmlə bağlı gələn xarici turistlərin sayında isə 8,5 faiz artım qeydə alınmışdır. Dünya Səyahət və Turizm Şurasının verdiyi məlumatlarına istinadən, Azərbaycanda turizm sahəsi birbaşa ÜDM-in 2,8 faizi hissəsi, məşğulluğun isə 2,6 faiz hissəsi qədər paya sahibdir ki, bu da ümumilikdə dünyada ortalama məşğulluq göstəricilərindən nisbətən az fərqlənir ki, bu da gələcək inkişaf potensialın xəbərçisidir.

Son dövrlərdə turizm sahəsi həm sənaye, həm də ərazi kompleksi kimi formalaşmışdır.Turizm sahəsi insanların istirahəti ilə əlaqəli olan sənaye, nəqliyyat və başqa digər sahələrin qarşılıqlı əlaqəsi vasitəsilə turist xidmətinin təşkil edilməsi məqsədi ilə yaranan təşkilatlar, müəssisə və orqanlar daxildir.Bu sənaye ozündə mehmanxana kompleksləri, yeməkxanalar həmçinin ekskursiya şirkətləri, nəqliyyat müəssisələri ilə yanaşı sosial-mədəni sahələri cəmləşdirir. Hazırki dövrdə turizm strateji həm də islahatlar proqramının da əsas istiqaməti kimi özünü çox zəruriləşdirir. Dövlət turizm sahəsinin inkişafı ilə bağlı məşğul olan sahibkarlara, həmçinin hüquqi və fiziki şəxslərə də yardım edərək həmin regionun ərazisində turizm dövriyyəsinin artmasına da səbəb olur. Turizmin inkişafı həm regionların inkişafı , həm də tarixi qədim mədəniyyət abidələrinin həmçinin, adət və ənənələrin qorunmasında da gələcək nəsillərə ötürülməsində də rol oynayır. Aqroturizminin inkişafı kənd əhalisinin də həyat tərzinə təsir göstərərək onlarda yeni vərdişlərin yaranmasına da səbəb olur. Turizmin coğrafi-iqtisadi cəhətdən mahiyyəti onun ərazi xüsusiyyətlərinin formalaşmasında rol oynayır. Bu onunla bağlıdır ki, regional iqtisadiyyat da təbii coğrafi və tranzit şəraitdən asılı vəziyyətdədir. Hər bir regionun özündə müəyyən resurslar və onlardan istifadənin texnologiyaları, əhalisi və məskunlaşma problemləri vardır. Bu səbəbdən də regionların kompleks inkişafı məqsədilə onların resurs potensialını qiymətləndirmək, həmçinin yeni iş yerlərinin açılmasını da təmin etmək və fəaliyyət istiqamətləri kimi iqtisadi təsərrüfat sahələri yaratmaq kritetial meyar nöqteyi-nəzərindən əsaslandırılır.

Azərbaycanın müxtəlif bölgələrində infrastrukturun yaxşılaşdırılması da kənd turizminin inkişafına daha müsbət təsir göstərir. Respublikamızda 12 təbii və tarixi cəhətdən turizm üçün yararlı qoruq, bundan başqa 17 ov təsərrüfatı, 250-dən artıq göl və 1200-ə yaxın kiçik çaylar vardır. Hazırki dövrdə respublikada şəhərlərarası nəqliyyat da, yükdaşıma da əhalidaşıma üçün yaranan nəqliyyat vasitələri də onların xidmət səviyyəsi də yol infrastrukturu da beynəlxalq tələblərə uyğun şəkildə təkmilləşmiş və yenidən təşkil olunmuşdur.

Aqroturizmin iqtisadi əhəmiyyəti kifayət qədər yüksəkdir. Belə ki, son illər ərzində aqroturizmin inkişafı və qəbul edilən turistlərin sayına görə bu sahənin inkişaf etdiyi regionlar iqtisadi cəhətdən kifayət qədər yüksək inkişaf etmişlər. Aqroturizmin inkişaf etdirilməsi eyni zamanda da regionların coğrafi mövqeyi və əlverişli təbii şəraitdən də asılıdır. Aqroturizmin inkişafı regionlarda işsizliyin azalması, infrastrukturun yaradılması və təkmilləşdirilməsini, həmçinin, həmin regionun inkişafını sürətləndirir. Aqroturizm gəlirləri regionların inkişafında, tarixi abidələrin qorunub-saxlanılmasında, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Aqroturizmin inkişafı, əsas da də beynəlxalq turizm ölkəyəvalyuta daxil olmasını təmin edən faktorlardandır. Aqroturizmin sosial-iqtisadi cəhətdən mahiyyəti və onun ölkə iqtisadiyyatında oynadığı rol, perspektiv istiqamət olmaqla yanaşı daha da çox iqtisadi artımla müşahidə olunur. Turizm layihələrinin tərtib olunması və onların maliyyələşməsi həm yerli, həm də xarici investisiyaların və beynəlxalq korporasiyaların cəlb edilməsi yolu ilə daha da geniş vüsət alır. Bu da kənddə yoxsulluğun azaldılmasında, kənd əhalisinin məskunlaşmasında, yeni iş yerlərinin açılmasında və xırda sahibkarlıq fəaliyyətinin stimullaşmasında öz əksini tapır.

Aqroturizm mədəniyyət və ekologiya nöqteyi-nəzərindən də əhəmiyyətli rol oynayır. Kəndlərin iqtisadi və sosial bazasının möhkəmləndirilməsində, regionlarda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində aqroturizminin imkanları genişdir.

Aqroturizm təsərrüfatının fəaliyyət istiqamətlərinin əsas iqtisadi əhəmiyyətlərindən biri də kəndlərdə əlavə gəlir mənbəyinin yaradılmasından və kəndlərdə yeni iş yerlərinin açılmasından ibarətdir. Nəticədə kəndlərdə yoxsulluq səviyyəsi nisbətən aşağı düşür, əhalinin yaşayış səviyyəsi yüksəlir və şəhər yerlərinə olan miqrasiyanın qarşısı müəyən qədər alınır. Aqroturizm sahəsinin fəaliyyəti ilə kənd əhalisinin istehsal etdikləri məhsulları satmaq üçün yeni bazarlar əldə etməsinə zəmin yaradır.

Aqroturizmin əsas cəhətləri içərisində kustar sənaye məhsullarının, əl əməyi iləhazırlanan məhsulların, yerli və ənənəvi yemək nümunələrinin, onların bişirilməsində istifadə edilən ərzaq məhsullarının satışından əldə olunan, turistlərə verilən evlərin kirayəsindən, turistlərin daşınmasından, bələdçilikdən və təbiətin mənzərəli yerlərinə baxışdan, yerli vergi və rüsumlardan, həmçinin mərasim və ayinlərin təşkil olunmasından əldə olunan gəlirləri göstərmək mümkündür. Aqroturizm həmçinin, mədəni əlaqələrin yaradılması, məlumatların qorunması və mübadilə edilməsini özndə ehtiva edir. Xalqlar tarixən formalaşan mədəniyyəti qoruyub saxlayır və digər xalqların onlara mənfi təsirinə imkan vermir. Aqroturizm fəaliyyəti və onun inkişafı məqsədilə istifadə edilən ərazilərin, orada yerləşən əhəmiyyətli turizm obyektlərinin artırılmasının kənd məskunlaşması yerlərinin ekoloji mühitinin qorunub saxlanması və onların təbii tarazlığının yenidən bərpasında əhəmiyyətli rol oynayır. (4)

Aqroturizm həm dəgəlirli sahələrdən biridir. Respublikamız aqroturizm sahəsində böyük potensialı vardır. Təbii sərvətləri, füsunkar təbiəti, tariximemarlıq abidələri, folkloru, bənzərsiz flora və faunası ilə daima xarici turistləri heyran edəbilər. Aqroturizm daxilində həm regionların təbiətini, həm bu regionların xalqlarını, onların həyat səviyyəsini, adət-ənənələrini, idmanla yanaşı, biznes elementləri ilə də əlaqələndirən milli xüsusiyyətlərini öyrənmək, məqsədli səyahət etməyi əks etdirən istirahət növlərindən biri hesab olunur. Bu biznes inkişaf etdikcə gəlirlərin səviyyəsi artır, beləliklə də, turizm müəssisələrində yaşayan insanların həyat səviyyəsi də yüksəlmiş olur.

Aqroturizmin inkişafı nəticəsindəhəmin yerin mədəni mirasına da tələbat yaranır. Yaranan bu tələbat həm yerli artistləri, rəssamları, musiqiçiləri dəstəkləyir, həm də əhalinin mədəni vərəsəyə marağını daha dayüksəldir. Kənd əhalisinin turizmə tələbatı istehlak həcmi və turizmə konkret tələbatının ödənilmə səviyyəsi ilə müəyyənləşir.

Aqroturizm gəlirlərinin səviyyəsi aşağı olan kənd xalqına iqtisadi cəhətdən dəstəyi təmin etməkdə, həmçinin, yerli mədəniyyətlərin tanınması və həmin mədəniyyətlərin yaşadılmasında iştirak edir və təbii mühitlərdə, təbiətin qoynunda tətil keçirilməsini təmin edir.

ümumilikdə aqroturizm və onun sosial-iqtisadi mahiyyətinin təhlili verildiyindən, bu paraqrafda aqroturizm və onun inkişaf amilləri araşdırılacaqdır. Aqroturizm sənayesinin inkişafına təsir göstərən xeyli amillər var. Bu amillərin hamısının öyrənilməsi çox vacibdir. Belə ki, aqroturizm sahəsində məhsulun formalaşdırılması zamanı bütün bu amillər nəzərə alınmazsa əgər, məhsulun satılmasında problemlər meydana çıxa bilər.Müasir dövrdə turistlər demək olar ki, bu amillərə qarşı daha həssas davranırlar. Aqroturizm müəssisələrinin də qarşısında duran vacib məqsəd uğurlu marketinq siyasəti yolu ilə turistlərin təlabatına uyğun olaraq turizm məhsulunun istehsalı olduğu üçün bu amilləri xüsusi ilə nəzərə almalıdırlar.Aqroturizmin inkişafına səbəb ola biləcək amillər aşağıdakılardır:(4)

-aqrolandşaftın cəlbediciliyi;

-zəruri infrastruktur;

-nisbətən böyük olmayan investisiyalarla turistləri cəlb edən kiçik və orta təsərrüfatlar;

-əlverişli təbii iqlim şəraiti və ehtiyatlar; -əlverişli ekoloji vəziyyət;

-Azərbaycan xalqının qonaqpərvərlik ənənələri.(2)

Ümumiyyətlə turizmdə idarəetmə iqtisadi və sosial idarəetmə problemlərinin vəhdətindən ibarətdir. Təşkilati və iqtisadi quruluş ərazi və sahə prinsipləri əsasında qururlur. İdarəetmə vəzifələri mürəkkəb bazar konyukturası şəraitində sistemli, kompleks və dinamik şəkildə təşkil olunur. Turizmdə idarəetmə dedikdə, turizm sahəsində mülkiyyət münasibətlərini, onun əsas formalarını, eləcə də təsərrüfatın təşkil edilməsinin əsas istiqamətlərinin vəhdəti başa düşülür. Turizmdə

idarəetmənin ən əsas məqsədi maksimal iqtisadi səmərə, faydanın əldə edilməsinə istiqamətlənir. Turizmin iqtisadi səmərəsi və yaxud da rentabelliliyi sosial və iqtisadi səmərə ilə müəyyən olunur. Aqroturizmin düzgün idarə olunması minimum, ən az xərclər daha çox iş yerlərinin açılmasına, məşğulluğun təmin edilməsinə, eləcə də kommersiya mənfəətinin artəırılmasına səbəb olur. Turizm mentaliteti turizmin idarə olunmasını müəyyənləşdirən ən əsas amillərdən biri hesab olunur. Turizmin düzgün idarə olunması sistemində ilkin olaraq turizm bazarının öyrənilməsi xüsusilə əhəmiyyət daşıyır. Eyni zamanda da turizm bazarının digər bazarlardan ən əsas fərqləndirici cəhətlərinin müəyyən olunması turizmin idarə olunmasının əsasında dayanan əsas amillərdən biridir. Yuxarıda dediklərimizə istinad edərək turizmdə idarəetməyə yekun olaraq belə bir tərif verə bilərik: Turizmdə idarəetmə turizm məhsuluna olan tələblə təklif arasında mövcud olan təşkilati idarəetmə strukturunun müəyyən olunaraq həyata keçirilməsi mexanizmidir.(3)

Aqroturizmin regional xüsusiyyətli idarəetməsi dedikdə isə ayrı-ayrı regional kompleks şəkildə, vahid vəhdətdə inkişafına və eləcə də bu inkişafın əsas istiqamətlərinin müəyyən edilməsi sahəsində idarəetmənin əsas prinsiplərinin həyata keçirilməsi mexanizmi başa düşülür. Turizmdə idarəetmə sosial və iqtisadi inkişafın ən ali məqsədlərinin həyata keçirilməsi mexanizminin inkişaf etdirilməsinə xidmət edir. Aqroturizmdə idarəetmə məqsədyönlü fəaliyyətdir və ən əsas xarakterik cəhəti isə sahə xüsusiyyətləri üzərində qurulması ilə izah olunur. Turizmdə idarəçiliyin uğurla həyata keçirilməsi turizm sahəsinin sosial, iqtisadi rolunun müəyyən edilməsi və eləcə də bu rolun ümumi iqtisadi inkişafda əhəmiyyəti müəyyənləşdirilir. Bu baxımdan da turizmin idarə edilməsi müxtəlif metodlar vasitəsilə həyata keçirilir.

Aqroturizmin idarəedilməsində ortaya çıxan əsas məsələlərdən biri də turizmin inkişafının metodoloji əsaslarının müəyyən edilməsidir. Turizmin inkişafının metodoloji əsasları müxtəlif modellər vasitəsilə həyata keçirilir. Aqroturizmin idarəedilməsində əsas məsələlərdən biri də turizmin düzgün planlaşmasının təmin edilməsidir. Turizmin planlaşması dedikdə, perspektiv dövr və yaxud da period üçün turizm fəaliyyətinin təşkili başa düşülür. Turizmin inkişafında və eləcə də idarə edilməsində mühim əhəmiyyət kəsb edən planlar üç əsas istiqamətə bölünür. Həmin planlar aşağıdakı tərkibdədir:(6)

- Sahə;
- Ərazi;
- Funksional. (5)

Aqroturizm fəaliyyəti ilə məşğul olan hər bir müəssisə özünün cari və gələcək dövrdə sabit və dayanıqlı fəaliyyətini təmin etmək məqsədilə biznesplanlar təşkil edir. Biznes-planın yaranmasının əsasında planlaşma və proqnozlaşdırma dayanır. Proqnozlaşdırma vasitəsilə turizm müəssisəsinin cari və perspektiv dövrdə gəlir və xərclərinin əsas istiqamətləri müəyyənləşdirilir və bunun nəticəsində isə müəssisənin iqtisadi-səmərə vermə qabiliyyəti və yaxud da rentabelliliyi müəyyən edilmiş olur. Aqroturizmin idarə edilməsi struktur islahatların elə tərkib hissəsidir ki, özündə kompleks, sistemli və məqsədyönlü fəaliyyəti ehtiva edir. Turizm idarəetmə obyekti olmaqla turizmin əsas məqsədinin müəyyən olunmasına, eləcə də turizm müəssisəsinin təşkilati-struktur quruluşunun müəyyən edilməsinə və kadr potensialının formalaşmasına xidmət edir. Turizmin inkişafının əsasında turistlərin motivasiyalaaşması dayanır. Bu baxımdan da turizmin idarəedilməsi prosesində hər bir turistin müəssisə və özünün səyahəti barəsində rəyi öyrənilir, səyahət tələbatının hansı dərəcədə ödənildiyi öyrənilir, eyni zamanda da turizm müəssisəsinin həyata keçirmiş olduğu xidmət səviyyəsinin keyfiyyəti əhatəli təhlil olunur və bu qeyd etdiklərimiz turizmin idarə edilməsində əsas motiv rolunu oynamış olur.

Aqroturizmin idarə edilməsi eyni zamanda da turizm potensialının müəyyən edilməsi və mövcud potensialdan səmərəli və öz təyinatına uyğun istifadə edilməsində mühim rol oynayır. Bu baxımdan da turizmin idarə edilməsi sistemində turizmin potensialının müəyyən edilməsi mühim əhəmiyyət kəsb edən məsələlərdən biridir. Aqroturizm potensialı dedikdə, hər bir nəfər turistə və yaxud da insana düşən turizm şəraitinin rəqəmlə ifadə olunmuş kəmiyyəti başa düşülür. Məlum olduğu kimi, turistlər bir ölkə hüdudları daxilində qərarlaşmırlar. Bu baxımdan da turist potensialının və yaxud da potensial turist axını ifadələrinin müəyyən edilməsi müstəsna rol oynayır. Potensial turist axını dedikdə isə, daim axtarışda olan və bu məqsədlə iş yerini daim dəyişən turistlərin axını prosesi başa düşülür. Aqroturizmin idarə olunmasında əsas anlayışlardan biri də vəzifələrin düzgün

bölgüsü ilə əlaqədardır. Turizmin hər bir sahəsi üzrə düzgün vəzifələrin və məqsədlərin seçilməsi turizmin idarə olunmasında xüsusilə əhəmiyyətlidir. Belə ki, otelçilik, turizm sənayesi, turizm infratrukturu, turizmin mədəni xidmət sferası eləcə də turizm planlaşdırması xüsusi əhəmiyyət kəsb edən və vəzifə bölgüsünün düzgünlüyünü tələb edən əsas anlayışlardan biridir. Qeyd etdiyimiz hər bir mərhələnin özünün xarakterik xüsusiyyətləri olmaqla yanaşı, eyni zamanda da bu sahələrin hər biri xarakterik idarəetmə üsul və vasitələri ilə xarakterizə olunur. Aqroturizmin idarə olunmasının təkmilləşdirilməsi son dövrlərdə xüsusi əhəmiyyət kəsb edən əsas məsələlərdən biridir. Turizmin idarə olunmasının təkmilləşdirilməsi dedikdə, müasir iqtisadi şəraitdə ölkə iqtisadiyyatında baş verən ən son struktur dəyişikliklərinin əsas xarakterik xüsusiyyətlərini nəzərə almaqla ölkənin gələcək dövrdə perspektiv istiqamətdə inkişafını təmin edə biləcək layihələrin işlənib hazırlanmasını və eləcə də onların düzgün idarə olunması başa düşülür. Turizm sahə iqtisadiyyatının əsas həlqələrindən biri olduğundan, bu sahənin inkişafı ərazi xüsusiyyətlərini və ərazi idarəetmənin əsas başlıca istiqamətlərini də özündə ehtiva edir. Turizmin idarə olunmasında digər bir prinsip isə dünyəviliyin qorunub saxlanılmasının təmin edilməsidir. Turizmin idarə olunması sisteminin təkmilləşdirilməsinə iki əsas istiqamətdə yanaşmaq lazımdır.

**Nəticə**

Aqroturizm inkişafına güclü təsir göstərən əsas amillərdən biri də məhz sosial faktordur. . Regionlarda turizmin inkişaf etməsi işsizlərin böyük şəhərlərə axınının qabağını alır. Bu amilləri nəzərə aldığımız zaman görərik ki , turistlər daha çox qonşu ölkələr arasında səfər edirlər. Bunun da əsas səbəbi qonşu ölkələrlə olan oxşar adət və ənənələr, dil yaxınlığı, yaşayış tərzidir. Məlumatlara görə, ölkəmizə gələn turistlərin sayı əvvəlki illərlə müqayisədə yüksəlib. Bu artım isə təxminən 7-10 faiz olub. Amma araşdırmalar göstərir ki, əvvəlki il müddətində xaricə gedən yerli turistlərin də sayı heç də az olmayıb və bu turistlər xaricdə 600 milyon dollardan çox pul xərcləyiblər. İnsanların gəlir səviyyəsinin yüksəlməsi onların turist qismində digər ölkələrə gedərək daha da çox vəsait xərcləmələrinə şərait yaradır. Buna baxmayaraq, Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, vətəndaşların ümumilikdə gəlirlərinin təxminən faizə qədəri istehlak məhsullarının alınmasına istiqamətlənir.

Azərbaycanda aqroturizmin inkişafına şərait yaradan önəmli amillərdən biri də, bu ölkənin çox əlverişli coğrafi mövqedə yerləşməsidir. Aqroturizmin inkişafına təkan verən amillərdən biri isə respublika təbiətinin özünəməxsusluğudur. Yağıntıların ərazilərdə paylanmasına görə və temperatur rejiminə görə ölkəmizdə 9 əsas iqlim qurşağı vardır.

Aqroturizmin inkişafında rol oynayan təbii ehtiyatlara ölkə ərazisindəki çoxsaylı təbii mineral bulaqlar da daxildir. Respublika ərazisində müşahidə olunan günəş istiliyinin orta illik göstəricisi uzunmüddətli istirahət, turist gəzintiləri həmçinin müxtəlif məqsədli səyahətlər üçün xeyli əlverişlidir. Bütün bu qeyd olunanlar ölkəmizin təbii iqlim xüsusiyyətlərinin hamısını ehtiva etməsədə, onlara nəzər salmaqla respublikamızın potensial aqroturizm imkanlarının inkişafı üçün vacib olan əsas şərtləri görmək mümkündür. Azərbaycan Respublikasında aqroturizmin inkişafında təsirli olan əsas amillərdən biri də respublikamızdakı qədim tarixi-arxeoloji abidələrdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Əlirzayev Ə.Q.. "Turizmin iqtisadiyyatı və idarə edilməsi" 2010
2. Hüseynov İ., Əfəndiyeva N.. "Turizmin əsasları" 2007 11.Bilalov B.Ə. Turizmin menecmenti. 2005
3. İlqar Hüseynov, Nigar Əfəndiyeva. "Turizmin əsasları" Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət universitetinin dərsliyi. Bakı-2007
4. Əlirzayev Ə.Q. Aslanova S. İ."Turizmin inkişafının sosial iqtisadi problemləri" Bakı 2006
5. Bilalov B.Ə. "Turizm fəaliyyətinin tənzimlənməsi"Bakı-2002
6. Nosirov B.Z., Abduvasikov A.A. The evolution of agricultural markets of Uzbekistan. Conference materials of D.A. Tsenov Economics Academy in Svishtov, Bulgaria. October 4-5, 2019.
7. Nosirov B., Rakhmonova B. Organization of production of walnuts in an industrial volumes. International online conference ECLSS Economics and Social sciences. Proceeding book. June 28-29, 2020. Istanbul, Turkey. P. 59-67. http://eclss.org/publications fordoi/istanbulonline.pdf

8. Nosirov B. Z., Ergashev A. A., Islamova D. T. Development prospects of food markets in Andijan province // THEORIA: педагогика, экономика, право. 2020. №1 (1). URL: https://theoria.apni.ru/article/17-development-prospects-of-food-markets

**Гюнай Азер АХМЕДОВА**

## ЭКОНОМИЧЕСКАЯ ОСНОВА ФОРМИРОВАНИЯ АГРОТУРИЗМСКОЙ ДЕЯТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

Основная цель статьи – определить направления развития агротуризма и проблемы его развития. Исследования показывают, что в Азербайджане формируется и развивается агротуризм. Из фактов видно, что многие страны довольно широко используют агротуризм, несмотря на ограниченность ресурсов, природы и климата. Они получают от этого очень высокий доход. В результате развития агротуризма эти страны не только получают экономические выгоды, но в то же время приобретают положительный имидж и ценность себя в мире. Азербайджан имеет свое географическое положение, свою природу, многовековую историю, свои материальные и духовные ресурсы. Поэтому проблем для развития агротуризма быть не должно. Должны быть реализованы соответствующие меры по информированию местных жителей в этом направлении, на региональном уровне должны быть созданы центры развития аграрного туризма в каждом экономическом районе. При этом для налаживания местного малого агротуристического бизнеса населения в регионах в банковском секторе должны быть подготовлены специальные стимулирующие условия кредитования этой сферы. Благодаря этому будет устранена проблема самофинансирования регионов и минимизирована зависимость регионов от госбюджета.

**Ключевые слова:** *развитие агротуризма, мировой опыт агротуризма, экономическое развитие.*

**Gunay Azer AHMADOVA**

## ECONOMIC BASIS OF THE FORMATION OF AGRO-TOURISM ACTIVITY IN AZERBAIJAN

**Summary**

The main goal of the article is to determine the directions of development of agrotourism and its development problems. Studies show that agrotourism is forming and developing in Azerbaijan. It is clear from the facts that many countries use agrotourism quite widely despite their limited resources, nature, and climate. They get a very high income from this. As a result of the development of agrotourism, those countries not only gain economic benefits, but also gain a positive image and value for themselves in the world. Azerbaijan has its geographical position, its nature, hundreds of years of history, and its material and spiritual resources. Therefore, there should be no problem for the development of agrotourism. Proper awareness measures of local citizens in this direction should be implemented, regionally, centers should be created for the development of agrarian tourism in each economic district. At the same time, in order to establish the local small agrotourism business of the population in the regions, special incentive credit conditions for this field should be prepared in the banking sector. Thanks to this, the problem of self-financing of the regions will be eliminated and the dependence of the regions on the state budget can be minimized.

**Keywords:** *agrotourism development, agrotourism experience in the world, economic development*